# Teatrlarımız mövsümə necə başlayır?



■ Xəyalə Rəis
*teatrşünas*

Sizi daha bir yeni teatr mövsümündə salamlayırıq. Hər yeni mövsüm bir başlanğıc deməkdir. Deyirlər işinin əvvəlini hansı əhval-ruhiyyədə başlandınsa axıra qədər elə gedir. Azərbaycan milli peşəkar teatrının 144-cü mövsümünü də teatr cameəsi böyük ruh yüksəkliyi ilə qarşılayırlar. Bunu teatrların yaradıcı heyətlərinin sosial şəbəkələrdə paylaşdığı şəkillərdən, xəbərlərdən də aydın görmək mümkündür. Teatrlarımız yeni mövsümü açıq elan etməyə tələsirlər desək yəqin ki, yanılmarıq.

Yeni mövsümdən söz düşmüşkən qeyd edək ki, 144-cü mövsüm “Azərbaycan teatrı 2009-2019-cu illərdə” Dövlət proqramı çərçivəsində 15-24 sentyabr 2016-cı il tarixlərində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Şəki şəhər İcra Hakimiyyəti və Azərbaycan Teatr Xadimləri İttifaqının birgə keçirdiyi “Üç məkan” II Şəki Beynəlxalq Teatr Festivalı ilə açılacaq.

Üç məkan deyəndə söhbət hər hansı tamaşanın adından getmir. Məkan olaraq Bakı, Şəki, Mingəçevir şəhərlərini əhatə edən festivalda Azərbaycandan Milli Akademik Dram Teatrının, Azərbaycan Dövlət Rus Dram Teatrının, Azərbaycan Dövlət Kukla teatrının, Rusiyadan “Trikster” Teatrının, Ukraynadan “Prekrasnıye tsveti”, Gürcüstandan S.Axmeteli adına Tbilisi Dövlət Dram Teatrının, N.Dombadze adına Professional Dövlət Gənclər Teatrının, İrandan “Neqab” Teatrının, Birləşmiş Ərəb Əmirliyindən Dubay Bələdiyyə Teatrının, Türkiyədən İstanbul Bələdiyyəsi Şəhər Teatrının, Gəncə Dövlət Dram Teatrının, Şəki Dövlət Dram Teatrının çıxışları planlaşdırılır.



Festival çərçivəsində Şəki teatrının foyesində səyyar təsviri sənət sergisi nümayiş olunacaq. Sentyabr ayının 16-da TÜRKSOY-a üzv ölkələrinin Teatr Rəhbərləri Şurasının 5-ci toplantısı keçiriləcək.

Şəkidə açılış olduqdan sonra ölkəmizdə fəaliyyət göstərən digər teatrlar da öz səhnələrində mövsümü açıq elan edəcəklər. Biz də paytaxtımızda yerləşən teatrlarla əlaqə saxlayıb, mövsümü hansı tamaşa ilə başlayacaqlarını və mövsüm ərzində izləyicilərini hansı yeniliklərin gözləyəcəyini xəbər aldıq.

**Akademik Milli Dram Teatrının** mətbuat katibi Cavid Zeynallı bildirdi ki, artıq ana teatrın aylıq repertuar planı təsdiqlənib və onlar mövsümü açıq elan etmək üçün tam hazırdırlar: “Bildiyiniz kimi sentyabrın 15-də “Üç məkan” II Şəki Beynəlxalq Teatr Festivalının açılışı olacaq. Festivalda Akademik Milli Dram Teatrının kollektivi “Ölülər” tamaşası ilə çıxış edəcək. Teatrımız mövsümü sentyabrın 17-də xalq yazıçısı İlyas Əfəndiyevin əsəri əsasında xalq artisti Mərahim Fərzəlibəyovun quruluş verdiyi “Qarabağnamə” tamaşası ilə açacaq. Tamaşaçılarımız “21:15 qatarı”, “Müfəttiş”, “Şah Qacar”, “Anamın kitabı”, “Şekspir” və başqa tamaşaları izləyə biləcəklər. Qeyd edim ki, “Müfəttiş” və “Ölülər” tamaşalarının premyeraları ötən mövsümdə keçirilib və yeni mövsümdə nümayişi davam edəcək. Bundan başqa növbəti mövsümdə Akademik Milli Dram Teatrında həm azərbaycanlı və xarici dramaturqların əsərlərinin səhnələşdirilməsi planlaşdırılır”.



**Azərbaycan Dövlət Musiqili Teatrın** sözçüsü Samir Sədaqətoğlu isə 107-ci mövsümə Milli Musiqi Günündə başlayacaqlarını bildirdi. Onun sözlərinə görə, mövsümün açılış günü, sentyabrın 18-də dahi Üzeyir Hacıbəylinin ölməz “O olmasın, bu olsun” musiqili komediyası nümayiş olunacaq. Mədəniyyət və Turizm Nazirliyinin “Zirvə” Mükafatını qazanmış “O olmasın, bu olsun” tamaşasının quruluşçu-rejissoru Azərbaycan Respublikasının Xalq artisti, “Şöhrət” ordenli Cənnət Səlimovadır. Mövsüm ərzində iki yeni tamaşa da seyrçilərin ixtiyarına veriləcək. Onlardan biri İmre Kalmanın “Silva”, digəri isə Ə.Səmədlinin “Meşə çaqqalsız olmaz” tamaşasıdır.

**Azərbaycan Dövlət Yuğ Teatrının** mətbuat katibi Könül Cəfərovanın sözlərini görə, yeni mövsüm sentyabr ayının 20-də baş rejissor Gümrah Ömərin quruluşunda hazırlanan “Naməlum Axundzadə” (M.F.Axundzadə) tamaşası ilə açılacaq. Səhnəqrafiya müəllifi teatrın baş rəssamı, əməkdar rəssam Rəşid Şərif, musiqi tərtibatçısı Ramiq Mehdi olan tamaşada əməkdar artistlər Fərhad İsrafilov, Məmmədsəfa Qasımov, Vidadi Həsənov, Sonaxanım Mikayılova, Gülzar Qurbanova, Yaqut Paşazadə, aktyorlar Zümrüd Qasımova, Hikmət Rəhimov çıxış edir. Tamaşa saat 19:00-da başlayacaq.

Aldığımız məlumata görə, teatrda sentyabrda “Rindü-şeyda”, “Medeya. Sekvensiya 001”, “Kafkadan salam”, “Məhşər günü”, “Naməlum Axundzadə” tamaşaları nümayiş olunacaq. Yuğ teatrı cari mövsümdə L.Borxesin “Ölümsüzlük”, S.Moemin “Kilsə xidmətçisi”, Q.Markesin “Nəhəng qanadlı ahıl senyor”, O.Pamukun “Mənim adım qırmızı”, M. fon Maenbuqrun “Eybəcər”, K.Abdullanın “Bir, iki, bizimki...”, Elçinin “Cəhənnəm sakinləri”, Qan Turalının “Polkovnikin 3 günü” əsərlərinə də müraciət etməyi planlaşdırır. Həmçinin mövsüm ərzində bir neçə tamaşanın bərpa olunması nəzərdə tutulur.

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı** 89-cu teatr mövsümünün açılışını sentyabrın 17-si üçün planlaşdırır. Bu barədə bizə məlumat verən teatrın mətbuat xidmətinin rəhbəri Hüsniyyə Mursaquluyeva bildirdi ki, Teatr öz qapılarını sevimli tamaşaçılarının üzünə sentyabrın 17-də saat 12:00-da S.Şeydanın “Tülkü, tülkü, tünbəki” (premyera), saat 19:00-da isə İ.Əfəndiyevin “Məhv olmuş gündəliklər” tamaşaları ilə açacaq.

Mövsüm ərzində teatrın yaradıcı kollektivin görəcəyi işləri də xəbər aldıq. Öyrəndik ki, oktyabrın 12-dən-15-dək Kalmık Milli Dram Teatrının kollektivi teatrın qonağı olacaq. Kalmık Respublikasının mədəniyyət və turizm naziri Xonqor Elbikovun da iştirak edəcəyi qastrol səfəri ərzində bir neçə istedadlı kalmık rəssamının əl işlərindən ibarət sərgi nümayiş etdiriləcək. Bu qastrol səfərində teatr maraqlı eksperiment aparacaq. Belə ki, ötən 88-ci mövsümdə kalmık rejissoru Boris Manciyevin teatrda hazırladığı “Qohumlar” tamaşası Dövlət Gənc Tamaşaçılar Teatrı və Kalmık Milli Dram Teatrının aktyorlarının ifasında göstəriləcək. Qastrol səfərinin təntənəli bağlanış mərasimi oktyabr ayının 15-də baş tutacaq.

Teatrın sözçüsü əlavə etdi ki, yeni mövsümdə məşqlərinə hələ ötən mövsümdə start verilmiş iki tamaşa təqdim olunacaq: “Bunlardan biri orta əsr dahi Azərbaycan şairi Məhəmməd Füzulinin “Leyli və Məcnun” poemasının motivləri əsasında hazırlanan eyniadlı tamaşa, digəri isə Dövlət Gənc Tamaşaçılar Teatrı, İsveç səfirliyi və Azercell Telekom MMC-nin birgə təşkilatçılığı ilə hazırlanan Astrid Lindqrenin “Uzuncorab Peppi” əsəri əsasında hazırlanan tamaşadır. Mövsümün növbəti premyerası isə Xanımana Əlibəylinin “Aycan” əsəri əsasında hazırlanacaq eyniadlı səhnə əsəri olacaq”.



Bu il 85 illik yubileyini qeyd edən Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı özünün yubiley mövsümünə başlayır. Teatrın sözçüsü Həmidə Rüstəmovanın sözlərinə görə, mövsümün ümumilikdə milli teatrımız üçün məhsuldar və yaradıcılıq uğurları ilə zəngin keçəcəyini qeyd etdi: “Ötən mövsüm uğurlu tamaşa və qastrol səfərləri, müxtəlif festivallardan mükafatlarla yadda qaldı. Biz istirahət müddətində də fəaliyyətimizi davam etdirdik. Belə ki, Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı ölkə teatrları arasında daha bir ilkə imza ataraq teatrın “YouTube” səhifəsini internet istifadəçilərinin ixtiyarına verdi”.

Teatrın yeni mövsümə sentyabrın 9-da start verəcəyini deyən H.Rüstəmova həmin gün iki tamaşanın nümayiş olunacağını bildirdi. Belə ki, ilk olaraq Abdulla Şaiqin “Tıqtıq xanım” pyesinin motivləri əsasında teatrın baş rejissoru Qurban Məsimovun səhnələşdirdiyi və quruluş verdiyi “Tıq-tıq və Taq-taqın nağılı”, daha sonra isə rus xalq nağılı əsasında səhnələşdirilən “Qoğal” tamaşaları (rus dilində) nümayiş olunacaq.

Bundan başqa, Kukla teatrı 15-24 sentyabr tarixlərində “Üç məkan” II Şəki Beynəlxalq Teatr Festivalında da təmsil olunacaq. Teatr burada son uğurlu səhnə nümunələrindən olan “Zəng” adlı mono tamaşa ilə iştirak edəcək. Yeni mövsümdə hazırlanacaq olan tamaşalara gəlincə isə öyrəndik ki, ilin sonunadək daha iki yeni səhnə əsəri nümayiş olunacaq. Teatrın baş rejissoru Qurban Məsimovun quruluşunda Ş. Perronun “Qırmızıpapaq” və rejissor Anar Məmmədovun quruluşunda S.Sveyqin “Yad qadının məktubu” əsəri əsasında “Unudulmuş kukla” adlı mono tamaşa təqdim olunacaq. Artıq hər iki tamaşanın məşqlərinə başlanılıb.

**Azərbaycan Dövlət Pantomima Teatrı** mövsümü sentyabrın 17-də xalq artisti Bəxtiyar Xanızadənin rejissorluq etdiyi “Adagio” tamaşası ilə açacaq. Teatrın direktoru əməkdar artist Elman Rəfiyevin sözlərinə görə, hazırda teatrın səhnəsində yeni tamaşanın məşqləri gedir.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının mətbuat katibi Şükufə Ağamirzəyeva da qəzetimizə açıqlamasında bildirdi ki, teatrın yaradıcı kollektivi 108-ci mövsümü sentyabrın 18-də açıq Üzeyir Hacıbəyovun “Leyli və Məcnun” operası il açacaqlar. Tamaşada Məcnun rolunu xalq artisti Mənsum İbrahimov və Leyli rolunu isə onun tələbəsi Arzu Əliyeva canlandıracaq.

Teatrın yaradıcı heyəti yeni tamaşa üzərində çalışır. Belə ki, teatr sentyabrın 24-də VIII Beynəlxalq Üzeyir Hacıbəyli Musiqi Festivalı çərçivəsində Cüzeppe Verdinin “Bal-Maskarad” operasının premyerası tamaşaçılara təqdim olunacaq. Səhnə əsərinin əsas partiyalarında Belarusun əməkdar artisti Stanislav Trifonov, Azərbaycanın əməkdar artistləri Fərid Əliyev, İlahə Əfəndiyeva, İnarə Babayeva, Səbinə Vahabzadə, solistlər Tural Ağasıyev, Əliəhməd İbrahimov və Tələt Hüseynov çıxış edəcəklər. Tamaşanın musiqi rəhbəri və dirijoru beynəlxalq müsabiqələr laureatı Əyyub Quliyev, xormeysteri əməkdar incəsənət xadimi Sevil Hacıyeva, konsertmeysteri Nərgiz Ağayevadır.

Yeni mövsümdə tamaşaçılarımıza gözəl tamaşalar, teatrlarımıza bol alqışlar arzusu ilə...

